www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1817) 15 iyul 2025-ci il



# Universitetimizin növbəti “Məzun günü” keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: “Bu andan etibarən tibb yalnız ixtisasınız deyil – həyat tərzinizdir”**

səh. 2-3

Mustafa Topçubaşov – 130

## Dünya şöhrətli alimin zəngin həyat salnaməsi

səh. 5

## ATU-nun şöbə müdiri Çində beynəlxalq tədbirlərdə iştirak edib

səh. 4

## Tibbi aksiyalarda əsas diqqət uşaqlara və ahıl şəxslərə yönəldilib

səh. 4



## Səhiyyə naziri institutun yeni rektorunu kollektivə təqdim edib

Professor Nazim Pənahov gələcək fəaliyyət prioritetlərini açıqlayıb

səh. 4

## Əməkdaşımızın elmi fəaliyyəti çoxşaxəli tədqiqatları əhatə edir

*Xəyalə Məmmədovanın təkcə bu il Q1 və Q2 indeksli jurnallarda 5 məqaləsi dərc olunub*

səh. 6

## Yay meyvələri: qarpız, qovun, çiyələk, gilas...

*Min bir faydası, amma diqqət edilməli məqamlar da var*

səh. 7



## Hər üç adamdan birinin əziyyət çəkdiyi xəstəlik

Allergiyanı ortaya çıxaran bir çox səbəblər var

səh. 6

# Universitetimizin növbəti “Məzun günü”

## Rektor, professor Gəray Gəraybəyli: “Bu andan etibarən tibb yalnız ixtisasınız






**İyunun 30-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış teleaparıcı Saleh Bağırovun moderatorluğu ilə ölkəmizin ən qabaqcıl ali məktəblərindən biri olan Azərbaycan Tibb Universiteti tələbələrinin “Məzun günü” keçirilib.**

Rəsmi qonaqlar, tanınmış ictimai-siyasi xadimlər, alimlər, səhiyyə işçiləri, universitet rəhbərliyi və əməkdaşlarının qatıldığı təntənəli tədbir Dövlət Himnimizin səsləndirilməsi ilə başlayıb.

### “ATU-nun hər buraxılışı səhiyyəmiz üçün əlamətdar hadisədir”

Səhiyyə naziri Teymur Musayev açılış nitqində məzunları təbrik edərək, bu günün onların həyatında unudulmaz bir tarix kimi qalacağını bildirib: “Bügünkü tədbirdə iştirakınızın arxasında gərgin zəhmət, yuxusuz gecələr və təhsilə olan sonsuz həvəsiniz dayanıb. Universitetdə qazandığınız bilikləri gələcəkdə artıracağınıza, öyrənmək həvəsinizin həmişə sizinlə olacağına inanıram. Tibb Universiteti öz layiqli məzunları ilə fəxr edir, burada təhsil almış və dərs demiş görkəmli şəxsiyyətlərin şanlı ənənələrini yaşadır. Universitetin hər buraxılışı səhiyyəmiz və təbabətimiz üçün əlamətdar hadisədir. Azərbaycanın ilk ali məktəblərindən biri olan, ənənələri ilə tarixə söykənən Tibb Universiteti onilliklərdir səhiyyə ocaqları üçün yüksək ixtisaslı həkim kadrları yetişdirir, tibb elminin tərəqqisinə mühüm töhfələr verir”.

Çıxışında ölkədə səhiyyənin inkişafı, tibb təhsilinin gücləndirilməsi istiqamətində atılan addımlardan da söz açan nazir vurğulayıb ki, əhalinin sağlamlığının qorunması Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindəndir: “Ulu Öndər Heydər Əliyev səhiyyə sisteminin formalaşması və inkişafı üçün mühüm qərarlar verib. ATU-nun yeni tədris korpusunun inşası və ilk tədris klinikasının yaradılması da məhz onun adı ilə bağlıdır. Görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın tibb elmi və təhsilə verdiyi töhfələr də bu sahədə mənəvi örnəkdir”.

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkədə səhiyyə infrastrukturunun modernləşdirilməsi və tibbi xidmətlərin keyfiyyətinin artırılması sahəsində ciddi nailiyyətlər əldə olunub. İxtisasca həkim olan Birinci vitse-prezident Mehriban Əliyevanın tibb işçilərinə göstərdiyi xüsusi diqqət və qayğı isə bu sahəyə verilən dəyərin təzahürüdür.

Çıxışının sonunda həkimləri gündəlik həyatın qəhrəmanları adlandıran Teymur Musayev məzunlara bu çətin, lakin şərəfli yolda uğurlar arzulayıb: “Səhiyyəmizin sizə, Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq gənclərə, yaradıcı qüvvələrə böyük ehtiyacı var. Təbabətimizin sabahkı inkişafı əhəmiyyətli dərəcədə məhz bugünkü tələbələrdən və məzunlardan asılıdır. Ona görə deyə bilərik ki, milli səhiyyəmizin tərəqqisinə çalışan insanların sıraları daha da genişlənir. Mən bu münasibətlə məzunları, onların valideynlərini, bütün səhiyyə ictimaiyyətini, Tibb Universitetinin professor-müəllim heyətini təbrik edirəm! Öz biliklərinizə arxayın olun, cəsarətli və məsuliyyətli həkimlər kimi fəaliyyət göstərin. Bir həmkar kimi aramıza xoş gəldiniz!”

### “ATU-nun məzunu adını hər yerdə və hər zaman uca tutun”

Sonuncu kurs tələbələrinin buraxılış gecəsində məzunları və onların valideynlərini təbrik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu gün məzunların təkcə diplom almadıqlarını, həm də böyük bir öhdəlik - insan həyatı, sağlamlığı, ümid və inam daşıyan məsuliyyəti öz üzərlərinə götürdüklərini deyib: “Bu andan etibarən tibb yalnız ixtisasınız deyil – həyat tərzinizdir. Həkim olmaq – yalnız xəstəni sağaltmaq deyil, ona ümid vermək, ona insanlığın ən böyük hədiyyəsini – qayğını bəxş etməkdir. Siz Hippokrat andını bu gün bir daha öz ürəyinizdə təzələyirsiniz”.

Gənclərin himayədarı olmuş Ümummilli Lider Heydər Əliyev tərəfindən bilikli, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi üçün ciddi addımlar atıldığını vurğulayan rektor, bu gün də təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri elan edildiyini söyləyib: “Bu gün Ulu Öndərimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında Azərbaycan böyük addımlarla inkişaf edir. Bütün sahələrdə olduğu kimi, səhiyyə, tibb elmi sahəsində də böyük islahatlar aparılır. Sevindirici haldır ki, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında siz də daxil olmaqla gənclərin iştirakına xüsusi diqqət yetirilir. İnanırıq ki, məzun olan tələbələrimiz bu uğurların nəticəsində xalqımızın




sağlamlığının keşiyində əzmlə duracaqlar”.

Rektor vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsilimizin inkişafı naminə, öz bilik və bacarığı ilə seçilən tələbələrə həmişə diqqət və qayğı göstərir. Yüksək ballarla ATU-ya qəbul olunan tələbələrin Prezident Təqaüdü ilə mükafatlandırılmasını bu yanaşmanın bariz nümunəsi kimi dəyərləndirən professor Gəray Gəraybəyli, hər bir məzunun bu etimadı doğruldacağına, çalışdığı yerdə öz peşəkarlığı və insanlığı ilə fərqlənəcəyinə əminliyini bildirib.

Hər il olduğu kimi, bu il də ATU tələbələrinin buraxılış gecəsində səhiyyə naziri Teymur Musayevin şəxsən iştirak etməsindən məmnunluğunu dilə gətirən rektor, bu diqqəti həm də tibb tələbələrinə böyük etimadın göstəricisi kimi qiymətləndirib.

6 il öncə universitetimizə ilk dəfə qədəm qoyan, bu gündən isə müstəqil həkim kimi fəaliyyətə başlayan məzunlara bol-bol uğurlar, sağlam həyat və tükənməyən enerji arzulayan rektor G.Gəraybəyli, onları ATU-nun məzunu adını hər yerdə və hər zaman uca tutmağa çağırıb.

### İctimai fəallıqları ilə seçilən tələbələr mükafatlandırılıb

Sonra Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov 2025-ci il məzunlarına həkim adının verilməsi haqqında rektorun müvafiq əmrini oxuyub və universiteti bitirən məzunların statistikasını açıqlayıb. Bildirib ki, 2024-2025-ci tədris ilində Azərbaycan Tibb Universitetinin 1235 nəfər məzunu olub. Onlardan 853 nəfəri Azərbaycan vətəndaşı, 382 nəfəri isə əcnəbidir. I Müalicə-profilaktika fakültəsindən 356, II Müalicə-profilaktika fakültəsindən 310, “Tibbi profilaktika” ixtisasından 40, “İctimai səhiyyə” ixtisasından 61, “Fizioterapiya və tibbi reabilitasiya” ixtisasından 34, “Tibb bacısı işi” ixtisasından isə 32 nəfər məzundur. Eyni zamanda, universiteti “Stomatologiya” ixtisası üzrə 250, “Əczaçılıq” ixtisası üzrə 95, “Hərbi həkim” ixtisası üzrə 48, “Hərbi feldşer” ixtisası üzrə 45, “Hərbi stomatologiya” ixtisası üzrə isə 9 nəfər bitirib.

O da diqqətə çatdırılıb ki, hazırda ATU-da 45 müxtəlif ölkədən çoxsaylı xarici tələbələr təhsil alır. Türkiyə, İran, İordaniya,







# keçirilib

## deyil – həyat tərzinizdir”

Suriya, İraq, Pakistan, Sudan, Rusiya Federasiyası, Yəmən, Fələstin, Misir, Nigeriya, Hindistan, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Livan və digər ölkələrdən universitetimizi seçən əcnəbi vətəndaşlara professor-müəllim heyəti xüsusi həssaslıqla yanaşır, onların peşəkar həkim kimi yetişməsində əllərindən gələni əsirgəmirlər.

Tədbirdə təhsilini əla qiymətlərlə bitirən bir qrup məzuna səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru Gəray Gəraybəyli tərəfindən təntənəli şəkildə fərqlənmə diplomları təqdim olunub.

### Məzunlar həkim andına sadiq qalacaqlarına söz veriblər

Daha sonra məzunlar təntənəli şəkildə həkim andı içərək xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanacaqlarına söz veriblər. Hərbi tibb fakültəsinin məzunu Elşən Babayevin cümlə-cümlə səsləndirdiyi Hippokrat andını bütün məzunlar birlikdə təkrarlayıblar.

I Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən Günel İsmayılzadə və Suriya Ərəb Respublikasının vətəndaşı Mutas Alras məzunlar adından çıxış edərək təhsil aldıqları müddətdə onlara dərs deyən müəllimlərə, tələbələrdən diqqət və qayğısını əsirgəməyən rektora, hər zaman yanlarında olan valideynlərə, qarşılaşdıqları problemlərin vaxtında həllinə çalışan dekanlara, dekan müavinlərinə dərin təşəkkürlərini bildiriblər. Universitetdə əla qiymətlərlə oxuduqları kimi, həkimlik fəaliyyətlərində də müəllimlərinin etimadını doğrultmağa çalışacaqlarını söyləyiblər.

Fərqlənmə diplomuna layiq görülən məzunların çıxışlarının ardınca Azərbaycan Tibb Universitetində təhsil aldığı müddətdə ictimai fəallıqları ilə seçilmiş tələbələr də mükafatlandırılıb. Mükafatları I Müalicə-profilaktika fakültəsinin məzunu Minayə Yusifova, Əczaçılıq fakültəsinin məzunları Sona Əkbərli və Ofelya Məmmədovaya Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov, II Müalicə-profilaktika fakültəsinin məzunu Şəbnəm Kərimzadə və Stomatologiya fakültəsinin məzunu Nuray Allahverdiyevaya Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, Stomatologiya fakültəsinin məzunu Xəyal Fətullayev, II Müalicə-profilaktika fakültəsinin məzunu Ülkər Gülmalıyeva və İctimai səhiyyə fakültəsinin məzunu Məltəm Sahratlıya Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov, İctimai səhiyyə fakültəsinin məzunu Nailə Əhmədova və Hərbi tibb fakültəsinin məzunu Şahmar Məmmədova Ümumi işlər üzrə prorektor Nizami Adilov, Stomatologiya fakültəsinin məzunu Banıhashımıqarqarı Seyedehsafa və I Müalicə-profilaktika fakültəsinin məzunu Alras Mutaza Xarici əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, I Müalicə-profilaktika fakültəsinin məzunu Fidan Mahmudova, Stomatologiya fakültəsinin məzunu Solmaz Seyfullayeva və İctimai səhiyyə fakültəsinin məzunu Nuranə Paşazadəyə Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov, Əczaçılıq fakültəsinin məzunu Kənan Cəfərov və I Müalicə-profilaktika fakültəsinin məzunu Arzu Musayevaya isə Təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov təqdim ediblər.



Məzunlara 6 il ərzində dərs demiş müəllimlərin zəhmətini qiymətləndirmək də yaddan çıxmayıb:

*Gəlin alqış deyək, dostlar, ürəkdən,*
*Əsl müəllimtək yaşayanlara.*
*Şeirimlə gül dəstə bağlayıram mən,*
*Bu adı şərəflə daşıyanlara!*

Vurğulanıb ki, savadlı, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar dünyada ən çətin, eyni zamanda ən şərəfli peşənin daşıyıcıları olan müəllimlərin əməyi sayəsində yetişir. Hər fakültə üzrə hazırlanan video-çarxın nümayişindən sonra məzun tələbələr arasında keçirilmiş sorğunun nəticələri elan olunub. I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Bayramova, II Uşaq xəstəlikləri kafedrasının assistenti Aysel Süleymanlı, Hərbi cərrahiyyə kafedrasının müəllimi, tibb xidməti polkovniki Çingiz Quliyev, Ortopedik stomatologiya kafedrasının assistenti Həcər İsmayılova, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti Rəna Səmədova və Əczaçılıq kimyası kafedrasının dosenti Cəmilə Yusifova “Ən yaxşı müəllim” adına layiq görülüblər. Mükafatları fakültə dekanları təqdim edib.







Tədbirdə professor-müəllim heyəti və valideynlər adından çıxış edən natiqlər gənc həkimlərin bu şərəfli adı ləyaqətlə daşıyacaqlarına əminliklərini bildiriblər.

Azərbaycan Tibb Universitetində 2000-ci ildə Ulu Öndərimizin qərarı ilə Hərbi tibb fakültəsinin yaranması, məzun hərbi həkimlərin və feldşerlərin Vətən müharibəsində qəhrəmanlıq göstərməsi qürur hissi ilə xatırlanıb.







Bayram ovqatlı “Məzun günü” tədbirinin rəsmi hissəsi “Şəfa” ansamblının üzvlərinin ifasında ATU-nun Himninin oxunması və əzəmətli marşın sədaları altında Hərbi tibb fakültəsi müdavimlərinin sıra keçidi ilə başa çatıb.

Qısa fasilədən sonra bədii proqramla davam edən tədbirdə tələbələr səhnədə tanınmış ifaçılarla birgə bayram əhval-ruhiyyəsini bölüşüblər. Xalq artisti Alim Qasımov və digər müğənnilərin ifasında səslənən rəngarəng musiqi nömrələri alqışlarla qarşılanıb. Universitetin “Çinar” rəqs ansamblının çıxışları, Hərbi tibb fakültəsi tələbələrinin vətənpərvərlik ruhunda ifaları tədbirə xüsusi rəng qatıb.

Məzunlar və onların valideynləri, professor-müəllim heyəti, bütün qonaqlar həmişə yadda qalacaq, şirin xatirəyə çevriləcək gözəl bir gün yaşayıblar.

**Arif MƏMMƏDLİ**







# Əməkdaşlarımız Qazaxıstanda beynəlxalq konfransa qatılıb




Qazaxıstanın paytaxtı Astana şəhərində Avrasiya Radioloqlarının 11-ci beynəlxalq konfransı təşkil olunub. Konfransda universitetimizin Elmi işlər üzrə prorektoru, Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultan və həmin kafedranın əməkdaşı, həkim-radioloq Gülər Qorçiyeva iştirak ediblər. .

30-dan çox ölkənin tanınmış radioloqlarını bir araya gətirən və ənənəvi olaraq hər il Astana şəhərində keçirilən bu mötəbər konfransda nümayəndələrimiz radiologiya sahəsindəki son tədqiqatlarını təqdim edərək, həmkarları ilə təcrübə mübadiləsi aparıblar.

Qeyd edək ki, peşəkar inkişaf, elmi əməkdaşlıq, tibbi biliklərin paylaşılması və innovasiyaların tətbiqi sahəsində bu cür tədbirlər böyük əhəmiyyət daşıyır.

# ATU-nun şöbə müdiri Çində beynəlxalq tədbirlərdə iştirak edib

**Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patologiya kafedrasının müdir müavini, dosent Müşfiq Orucov Çin Xalq Respublikasının Şenyanq şəhərində yerləşən Çin Tibb Universitetinin əsas təşkilatçılığı ilə baş tutan "Bir kəmər, bir yol" Beynəlxalq Tibb Təhsili Alyansının (BRIMEA) İdarə Heyətinin iclasında və BRIMEA 2025 Təhsil Konfransında iştirak edib.**



Təhsil konfransında əməkdaşımız "Patologiyanın tədrisində innovativ qiymətləndirmə strategiyaları" mövzusunda əsas məruzə ilə çıxış edib. Çıxış iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbir çərçivəsində M.Orucov Çin Tibb Universitetinin prezidenti, professor Wang Zhenninglə görüşüb. Görüş zamanı o, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin salamlarını və konfrans münasibətilə təbriklərini çatdırıb, hər iki universitet arasında BRIMEA çərçivəsində mövcud əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Bundan əlavə, o, Şanxay şəhərində keçirilən "Şanxay Lin-qanq Beynəlxalq Tibb Texnologiyası Əməkdaşlıq Konfransı"nda iştirak edib. Konfrans çərçivəsində M.Orucov Şanxay Lin-qanq Sənaye Universitetinin Tibbi avadanlıqlar fakültəsinin "Qonaq professor"u seçilib.

Şanxaya səfəri zamanı əməkdaşımız dünya miqyasında tanınan radioloji avadanlıqlar istehsalçısı "United Imaging" zavodunu, həmçinin Fudan Universitetinin Pudonq Xəstəxanasını ziyarət edib.

# Səhiyyə naziri institutun yeni rektorunu kollektivə təqdim edib

## Professor Nazim Pənahov gələcək fəaliyyət prioritetlərini açıqlayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 7 iyul tarixli Sərəncamına əsasən, Nazim Adil oğlu Pənahov Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru təyin edilib.**



İyulun 8-də səhiyyə naziri Teymur Musayev Nazim Pənahovu institutun kollektivinə təqdim edib.

Tədbirdə çıxış edən nazir dövlət başçısının imzaladığı sərəncamı diqqətə çatdıraraq, Nazim Pənahovu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Nazir qeyd edib ki, Nazim Pənahov müxtəlif məsul vəzifələrdə çalışıb, o cümlədən bu təyinatadək Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru olub.

Teymur Musayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə səhiyyə sahəsində uğurla həyata keçirilən islahatlardan danışaraq, bu istiqamətdə qarşıya qoyulan vəzifələrin icrasında yeni rektora və institutun kollektivinə uğurlar arzulayıb.

Təqdimat mərasimində çıxış edən professor Nazim Pənahov ona göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib. O vurğulayıb ki, gələcək fəaliyyətində dövlətçilik dəyərləri, yüksək peşəkarlıq, şəffaflıq və ədalət prinsipləri əsas prioritet olacaq.

# Nevroloqlarımız Tbilisidən qayıdıb

**Gürcüstanın paytaxtı Tbilisi şəhərində 3-6 iyul tarixlərində Epilepsiya Əleyhinə Beynəlxalq Liqa (ILAE) və Liqanın Azərbaycan bölməsinin birgə təşkilatçılığı ilə Epileptologiya üzrə 11-ci Birləşdirilmiş Miqrasiya Qafqaz Kursu (11th Caucasian Migrating Course in Clinical Epileptology – CMCCE) keçirilib.**



Kursun əsas mövzusu epilepsiyanın diaqnostika və müalicəsində müasir yanaşmalar və beynəlxalq təcrübənin mübadiləsi olub.

Bu nüfuzlu beynəlxalq tədbirdə universitetimizin Nevrologiya kafedrasının əməkdaşları - kafedranın müdiri, professor Aytən Məmmədbəyli, o cümlədən Nailə Abbasova, Sona Əliyeva, Şəhla Məlikova, Aygün Musayeva, Samirə İsmayılova və Mədinə Tağıyeva ölkəmizi layiqincə təmsil ediblər.

Tədbirdə dünyanın müxtəlif ölkələrindən tanınmış nevroloqlar, epileptologiya üzrə ixtisaslaşmış mütəxəssislər, eləcə də tədqiqatçılar iştirak edib. Əməkdaşlarımızın elmi məruzələri və klinik təcrübəyə əsaslanan çıxışları xarici mütəxəssislərin marağına səbəb olub. Onlar müasir nevroloji yanaşmalar, innovativ diaqnostik metodlar və fərdi müalicə strategiyaları barədə fikir və bilik mübadiləsi aparıblar.

Qeyd edək ki, belə tədbirlər təkcə elmi yeniliklərin müzakirəsi deyil, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsi, gənc mütəxəssislərin inkişafı və tibb sahəsində qabaqcıl təcrübələrin ölkəmizə inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır.

# Tibbi aksiyalarda əsas diqqət uşaqlara və ahıl şəxslərə yönəldilib

**Tədris Stomatoloji Klinikası və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyi arasında qurulan əməkdaşlıq çərçivəsində stomatoloji xidmətlərin daha geniş əhali qrupları üçün əlçatanlığını təmin etmək və ağız-diş sağlamlığı sahəsində maarifləndirməni genişləndirmək məqsədilə silsilə səyyar tibbi aksiyalar həyata keçirilib.**



Xəbər verdiyimiz kimi, iyun ayının birinci yarısında 1 və 2 saylı Uşaq evlərində, sonra isə 3 saylı Uşaq evində və Ahıl Şəxslər üçün Sosial Xidmət Müəssisəsində keçirilən aksiyalar zamanı klinikanın əsas həkim heyəti və rezident həkimlərinin iştirakı ilə ilkin stomatoloji müayinələr və gigiyenik maarifləndirmə işləri aparılıb, ağız-diş sağlamlığına dair fərdi tövsiyələr verilib.



Uşaqların müayinəsi zamanı diqqət əsasən kariyes, diş əti xəstəlikləri, diş sırası qüsurları və ortodontik problemlərin erkən aşkarlanmasına yönəldilib. Aşkarlanan hallar qeydiyyata alınmaqla, müvafiq müalicə tədbirlərinin təşkili üçün ilkin proseslərə başlanılıb.

Ahıl şəxslərin müayinəsində isə parodont problemləri, diş itkisi, çeynəmə funksiyasının pozulması və protez ehtiyacları diqqət mərkəzində olub. Müayinə nəticəsində müəyyən edilən hallar əsasında fərdi müalicə planlarının hazırlanması istiqamətində ilkin addımlar atılıb.

Bu humanitar təşəbbüs bir daha göstərir ki, profilaktik stomatoloji yanaşmalar və erkən diaqnostika gələcəkdə ciddi ağız-diş problemlərinin qarşısının alınmasında mühüm amildir.

Klinikanın rəhbərliyi gələcəkdə də bu kimi sosial layihələri davam etdirməklə, stomatoloji xidmətlərin cəmiyyətin bütün təbəqələri üçün əlçatanlığına nail olmağı və ümumi sağlamlıq savadlılığını artırmaq istiqamətində fəaliyyətini daha da gücləndirməyi hədəfləyir.

**Bu günlərdə Türk Neonatoloji Cəmiyyətinin 32-ci toplantısı baş tutub. Tədbirdə İcraiyyə Şurasının üzvlüyünə seçkilər keçirilib. Nəticələrə əsasən, ATU-nun Tədris Cərrahiyyə Klinikasının Neonatologiya şöbəsinin müdiri, I Uşaq xəstəlikləri kafedrasının assistenti Sərxan Elbəyiyev Azərbaycandan cəmiyyətə üzv seçilib.**

# TCK-nın şöbə müdiri Türk Neonatoloji Cəmiyyətinə rəhbər üzv seçilib




Türk Neonatoloji Cəmiyyəti neonatal dövrdə baş verən xəstəliklərin qarşısının alınması (neonatal dövr – həyatın ilk ayında), körpə ölümlərini azaltmaq üçün diaqnostika və müalicədə effektiv monitorinq, bu sahədə çalışan tibb işçilərinin peşə inkişafını sürətləndirmək və ümumiyyətlə bu istiqamətdə cəmiyyətin məlumatlılığını artırmaq məqsədi ilə yaradılmış qeyri-hökumət təşkilatıdır. 1989-cu ildə Hacettepe Universitetində "Neonatoloji cəmiyyət" adı ilə qurulan dərnək, bu günədək bir çox təhsil fəaliyyətləri həyata keçirib, o cümlədən nəşrləri və üzərinə götürdüyü vəzifələr sayəsində sosial sahədə ön plana çıxır.

# Tələbələrimiz inkubasiya proqramından faydalanıb




Tələbələrimiz İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzində "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində həyata keçirilən IV "Tusi inkubasiya proqramı"na qoşulublar.

Onlar proqram çərçivəsində öz tibbi startap layihələri üzərində işləyərək, onları daha da təkmilləşdirirlər. İştirakçılar peşəkar mentorluq dəstəyi, biznes təlimləri, müasir iş məkanlarından istifadə və ideyalarını hazır məhsul səviyyəsinə çatdırmaq imkanı əldə edirlər.

Bu tədris ilində proqram çərçivəsində keçirilən son peşəkar görüşdə tələbələr layihələrinin yenilənmiş versiyalarını təqdim edib, gələcək planlarını və növbəti addımlarını müəyyənləşdiriblər.

Mustafa Topçubaşov – 130

# Dünya şöhrətli alimin zəngin həyat salnaməsi



**Görkəmli alim, pedaqoq, respublikamızda səhiyyənin aktiv təşkilatçılarından biri, milli elmi-cərrahiyyə məktəbinin yaradılmasında və yüksək ixtisaslı kadr-ların hazırlanmasında xüsusi xidmətlər göstərmiş əməkdar elm xadimi (1940), Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti (1951-1956; 1969-1981) professor Mustafa Ağabəy oğlu Topçubaşov 5 avqust 1895-ci ildə İrəvan qəzasının (Qərbi Azərbaycan) Göygümbət kəndində anadan olub.**

İbtidai (1904) və İrəvan gimnaziyası (1914) təhsilindən sonra Kiyev Universitetinin tibb fakültəsinə daxil olan M.Topçubaşov universiteti bitirdikdən sonra (1919) Naxçıvan və Bakı xəstəxanalarında cərrah, sonrakı 10 il ərzində (1920-1930) Bakı Dövlət Universitetinin fakültə cərrahiyyəsi klinikasında ordinator və assistent vəzifələrində işləyib.

1930-cu ildə doktorluq dissertasiyası müdafiə etdikdən sonra M.Topçubaşova professor elmi adı verilib və o, Azərbaycan Tibb İnstitutunun fakültə cərrahiyyəsi kafedrasının müdiri seçilib. Ömrünün sonuna qədər həmin kafedraya uğurla rəhbərlik edib.

1937-ci ildə M.Topçubaşov dünya anesteziologiyası tarixində analoqu olmayan orijinal keyləşdirmə-inyeksion efir-yağ narkozu üsulunu hazırlayıb. Sonralar bu ağrısızlaşdırma qarışığı "Analgezin" adı ilə populyarlıq qazanıb. Bu üsul narkozun orqanizmin özünütənzim reaksiyasının təzahür etməməsi ilə səciyyələnərək, əvvəllər anesteziologiyaya məlum olmayan bəzi psixonevroloji və neyrofizioloji mexanizmləri aşkar etməyə imkan verib. Ümumi anesteziyanın orqanizmə mənfi təsirindən fərqli olaraq (dərin yuxu, anestetiklərin toksiki təsiri, oyanma dövrü və s.) zərərsizliyi və tətbiqinin texniki sadəliyi ilə əlaqədar "Efir-yağ qarışıqlı keyləşdirmə" üsulu ağrı və qıcolma sindromları ilə müşayiət olunan bəzi xəstəliklərin (öddaşı xəstəliyi, travmatik şok, doğuş prosesi, tetanus və s.) effektli ağrısızlaşdırma vasitəsi kimi istifadə olunub. Huşun saxlanması ilə müşayiət olunan analgeziya zamanı xəstədə psixo-motor oyanma halı olmur. Bu fazadan sonrakı amneziya dövründə keçirilmiş əməliyyat və onunla əlaqədar hallar yadda qalmasa da, xəstədə ciddi yaddaş pozğunluğu baş vermir. Uzadılmış təsir effektinə malik analgeziya üsulu 1938-ci ildə klinik təcrübədə tətbiq olunmağa başlayıb. Məşhur Amerika anestezioloqu, "Efir analgeziyasının" müəllifi C.Artuzio M.Topçubaşovun kəşfini çox yüksək qiymətləndirib.

İkinci Dünya müharibəsi illərində yaralı döyüşçülərin müalicəsində efir-yağ analgeziyasından geniş istifadə olunub.



1978-ci ildə İsveç akademiyası akademik M.Topçubaşovun və professor Q.Qəhrəmanovun "Uzunmüddətli analgeziya – təbabətin və fiziologiyanın problemidir" mövzusunda elmi işini Nobel mükafatına təqdim edib. Təəssüf ki, qapalı Sovet sisteminə xas olan "siyasi motivlər"lə əlaqədar nominasiyaya irəli çəkilmiş yeganə azərbaycanlı alimlərin namizədliyi geri götürülüb (yeri gəlmişkən, 1978-ci ildə fiziologiya və təbabət üzrə heç kim Nobel mükafatına təqdim olunmayıb). Lakin alimlərimizin namizədliyinin irəli sürülməsi faktı M.Topçubaşovun kəşfinin təbabətin inkişafındakı rolunu bir daha təsdiq edir.

İkinci dünya müharibəsində akademik M.Topçubaşovun təşəbbüsü ilə hospitallarda tibb xidmətinin profilləşdirilməsi məqsədilə yaralıların və xəstələrin müalicəsinin fərqləndirici prinsiplərinə əsaslanan vahid sistem yaradılıb və bu sistem təxliyə hospitalları idarəsi tərəfindən bəyənilib. Müharibə illərində M.Topçubaşovun ixtira etdiyi "Yad cisimlərin xaric edilməsi üçün aparat" onun məhsuldar fəaliyyətinin digər nümunəsidir.

M.Topçubaşov dünyada ilk dəfə müharibə şəraitində massiv qanaxmalar zamanı dəniz suyunu effektli qanəvəzedici kimi istifadə edib.

Akademik geniş diapazona malik cərrah kimi plevra, qarın və kəllə boşluqlarında ən mürəkkəb əməliyyatları yüksək ustalıqla icra etmək bacarığına malik idi. 62 illik cərrahlıq fəaliyyəti ərzində o, 100 mindən çox müxtəlif həcmli əməliyyat icra edib. Respublikamızda cərrahi qastro-enterologiyanın, hepatopankreatobiliar cərrahiyyənin, urologiyanın, travmatologiyanın, neyrocərrahiyyənin inkişafında və bərpa cərrahiyyəsində onun müstəsna rolu olub. Periferik sinirlərin odlu silah zədələnmələrinin müalicəsi və diafraqmaaltı sahədə yerləşən orqanlar üzərində əməliyyat məqsədilə akademik M.Topçubaşov səmərəli üsullar təklif edib.

Görkəmli alim 300-dən çox elmi işin müəllifi və həmmüəllifidir. Onun klinik cərrahiyyənin müxtəlif sahələrinə həsr olunmuş 8 monoqrafiyası torakal, abdominal cərrahiyyənin, travmatologiyanın, rekonstruktiv bərpa cərrahiyyəsinin konseptual aspektlərinə həsr edilib. 5 cildlik "Xüsusi cərrahlıq" dərsliyi isə tibb institutunun tələbələri və cərrahlar üçün ən faydalı elmi-praktik vəsaitdir.

Tədris prosesinin əyaniliyini yüksəltmək məqsədilə 1954-cü ildə akademik M.Topçubaşov klinikada əməliyyat auditoriyası təşkil edib. Bu auditoriya tələbələrin əməliyyat otağına daxil olmadan, əməliyyat otağının bilavasitə üstündə gümbəz formasında yaradılmış və divarları yalnız şüşədən ibarət olan yerdən əməliyyatı müşahidə etməsini təmin edirdi.

Akademik M.Topçubaşovun rəhbərliyi altında və onun iştirakı ilə 12 doktorluq və 80 namizədlik dissertasiyası müdafiə edilib. Hazırda onun tələbələri nəinki respublikamızda, həmçinin ölkəmizdən kənarda yüksək ixtisaslı cərrah kimi fəaliyyət göstərərək, öz müəllimlərinin etimadını layiqincə doğruldurlar.

Aktiv ictimai fəaliyyəti ilə də tanınan akademik M.Topçubaşov respublika akademiyasının yaradılmasında mühüm rol oynayıb və onun ilk üzvlərindən biri olub. M.Topçubaşov uzun müddət Azərbaycanda Dünya Müdafiə Komitəsinin sədri, Asiya, Afrika, Latın Amerikası ölkələri ilə Dostluq Komitəsinin üzvü kimi bu sahədə məhsuldar fəaliyyətinə görə 1959-cü ildə Dünya Sülh Şurasının gümüş medalı ilə təltif edilib.

Çoxsahəli və məhsuldar praktik, elmi-pedaqoji və ictimai fəaliyyətinə görə bir çox orden və medallarla təltif edilən M.Topçubaşov, Beynəlxalq Cərrahlar Akademiyasının üzvü və Bolqarıstan Xalq Respublikasının Elmlər Akademiyasının müxbir üzvü olub.

Onun təşəbbüsü və geniş təşkilatçılığı sayəsində 1946-cı ildə "Naftalan Elmi-Tədqiqat Problem Laboratoriyası" və "Elmi-Tədqiqat Eksperimental və Klinik Təbabət İnstitutu" (indiki akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi) təşkil edilib. Hazırda Bakı şəhərinin küçələrindən biri və Respublika Elmi Cərrahiyyə Mərkəzi akademikin adını daşıyır. 1995-ci ildə M.Topçubaşova həsr olunmuş poçt markası buraxılıb. 2011-ci ildə isə rejissor Y.Əfəndiyev tərəfindən "Mustafa Topçubaşov. Əsrin fonunda portret" adlı sənədli film çəkilib.

Musiqiyə də xüsusi marağı olan M.Topçubaşovu dahi bəstəkar Üzeyir Hacıbəyov "təbabətin filosofu və bəstəkarı" adlandırmışdı. Dünya şöhrətli alimin zəngin həyat salnaməsi görkəmli yunan filosofu və eruditi Aristotelin sitatını söyləməyə əsas verir: "Təfəkkür insanın ən fədakar fəaliyyəti olub, xoşbəxtlik və həyat sevincindən yüksəkdir".

Akademik M.A.Topçubaşov 20 noyabr 1981-ci ildə vəfat edib. Məzarı Fəxri Xiyabandadır.

**Saday ƏLİYEV,**
*I Cərrahi xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru*

# 95 yaşlı bəstəkarın görmə qabiliyyəti 100 faiz bərpa olunub



Azərbaycanın görkəmli bəstəkarı, SSRİ xalq artisti Tofiq Bakıxanov bu günlərdə gözündən əməliyyat olunub. Hər iki gözdə qlaukoma (qarasu), fəsadlı katarakta, yaşla bağlı makulo distrofiyası diaqnozu qoyulmuş 95 yaşlı bəstəkarımızın üzərində əməliyyatı Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur həyata keçirib.

Əməliyyatla bağlı "Təbib" qəzetinə açıqlamasında professor bildirib ki, hazırda Tofiq Bakıxanov özünü yaxşı hiss edir və görmə qabiliyyəti 100 faiz bərpa olunub: "Qeyd edim ki, apardığımız 3 mürəkkəb əməliyyat dünyada az rast gəlinən, nadir hesab olun əməliyyatlar sırasındadır. Dekabrın 8-də böyük sənətkarımızın 95 yaşı tamam olacaq. Yüksək əhval-ruhiyyə ilə yubiley tədbirinə hazırlaşır. Yeni mahnılar bəstələyir".

Professor, T.Bakıxanovun onun şeirlərinə də mahnı bəstələdiyini diqqətimizə çatdırdı.

# Süni intellektin tibdə tətbiqinə həsr olunmuş seminar keçirilib



Bu günlərdə Azərbaycan Tibb Universitetinin Göz xəstəlikləri kafedrasında seminar keçirilib. Kafedranın əməkdaşları üçün nəzərdə tutulmuş seminarda universitetin Tibbi və bioloji fizika kafedrasının müəllimi, assistent Şəbnəm Hacıyeva "Süni intellekt vasitəsilə tibdə görüntülərin əldə olunması" mövzusunda məruzə ilə çıxış edib.

Ş.Hacıyeva bildirib ki, tibb daim inkişaf edən və yeni texnologiyaların inteqrasiyası ilə daha da təkmilləşən bir sahədir: "İnsan sağlamlığını qorumaq və xəstəliklərin müalicəsində yüksək effektivliyə nail olmaq üçün müasir yanaşmaların tətbiqi həkimlərin və tədqiqatçıların əsas məqsədlərindən biridir. Süni intellektin tibdə tətbiqini yeni yanaşma üsullarından hesab etmək olar".

Məruzəçi burada əsas məqsədin süni intellektə əsaslanan görüntü tanıma sistemlərinin rentgen, MRT və USM kimi ənənəvi tibbi diaqnostik metodlarla müqayisədə diaqnozun düzgünlüyü, nəticə əldə etmə sürəti və təkrarlanabilirliyi baxımından effektivliyini və etibarlılığını empirik olaraq qiymətləndirmə olduğunu qeyd edib: "Süni intellektlə təchiz edilmiş tibbi robotlar cərrahiyyə əməliyyatlarında dəqiqliyi artırır. Qeyd edim ki, süni intellektin tibdə tətbiqi son illərdə səhiyyə sahəsində mühüm dəyişikliklərə səbəb olub".

Süni intellektin tibdə tətbiqinin faydalarından söhbət açan məruzəçi, bu proses zamanı rast gəlinən çətinliklərdə də toxunub.

Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb. Ş.Hacıyeva verilən sualları ətraflı cavablandırıb.

# Əməkdaşımızın elmi fəaliyyəti çoxşaxəli tədqiqatları əhatə edir

## Xəyalə Məmmədovanın təkcə bu il Q1 və Q2 indeksli jurnallarda 5 məqaləsi dərc olunub

**Universitetimizin əməkdaşları ən müxtəlif istiqamətləri əhatə edən elmi işləri ilə seçilir. Belə işlər arasında Q faktorlu nəşrlərdə işıq üzü görənlər daha önəmlidir.**



Elmi tədqiqatlara xüsusi maraq göstərən əməkdaşlarımızdan biri də hazırda Tibbi və bioloji fizika kafedrasında dosent vəzifəsində çalışan Xəyalə Məmmədovadır.

Onun elmi fəaliyyəti tibb, biotexnologiya və biofizikanın kəsişməsində duran müasir və çoxşaxəli tədqiqatları əhatə edir. X.Məmmədova bioloji fizika sahəsində uzun illərdir aparıcı tədqiqatçılardan biri olaraq fəaliyyət göstərir və beynəlxalq jurnallarda dərc olunan yüksək impakt faktorlu məqalələri ilə tanınır. O təkcə 2025-ci ildə Q1 və Q2 indeksli nüfuzlu beynəlxalq jurnallarda ümumilikdə 5 elmi məqalənin müəllifi kimi çıxış edib. X.Məmmədovanın elmi işlərinin mövzu dairəsi də genişdir: Bacterial oncolytic therapy as a novel approach for cancer treatment in humans - Bakterial onkolitik terapiya: xərçəng müalicəsinə yeni yanaşma ("Cancer Treatment and Research Communications" jurnalı, Q2); Genome-Wide Study of Diabetes Mellitus (Type 2): Associated Genes in Homo sapiens - Diabetes mellitusun genomik tədqiqi (tip 2): Homosapiensdə əlaqəli genlər ("The Journal of Gene Medicine", Q2); Extending Shelf Life of Grapes and Tomato: The Efficacy of Chitosan/PVA Films Strengthened by Terminalia Arjuna Extract and Aloe Vera - Üzüm və pomidorun istifadə tarixinin uzadılması: Xitosanın effektivliyi/Terminalia arjuna ekstraktı və aloe vera ilə zənginləşdirilmiş PVA ("Waste and Biomass Valorization", Q2); Synthesis, characterization, antimicrobial and antiproliferative activities, molecular docking, and physicochemical properties of novel hydrazinecarbothioamide derivatives - Hidrazinkarbotioamidin yeni törəmələrinin sintezi, xarakteristikası, antimikrobiyal və antiproliferativ aktivliyi, molekulyar dokinq və fiziki-kimyəvi xüsusiyyətləri ("Journal of Molecular Structure", Q1); Microwave-assisted synthesis of superabsorbent agar-based magnetic composite hydrogel for drug delivery and anti-inflammatory studies - İltihab əleyhinə dərman tədqiqatları üçün superabsorbent maqnit kompozit hidrogelin mikrodalğalı sintezi ("Results in Engineering", Q1).

Bundan əlavə, X.Məmmədova "Springer" nəşriyyatında dərc olunmuş "Sustainable Cosmeceuticals: Integrating Natural and Biotechnological Innovations" (Davamlı kosmetika: təbii və biotexnoloji innovasiyaların inteqrasiyası) adlı beynəlxalq səviyyəli kitabda 2-ci fəslin ("Skin: Structure, Function, and Permeability Studies for Delivery of Active Agents" - Dəri: aktiv maddələrin təsiri üçün struktur, funksiya və dəri keçiriciliyi üzrə tədqiqat) müəllifidir.

Xəyalə Məmmədovanın elmi maraqları molekulyar biotexnologiya, dərman daşıma sistemləri, biomateriallar, biofiziki proseslər və onların klinik tətbiqləridir. O, həmçinin molekulyar dokinq və bioinformatik analizlər üzrə də ixtisaslaşıb. Onun elmi araşdırmaları yalnız nəzəri biliklərlə kifayətlənmir, həm də praktiki tibbə yönəlmiş tətbiqlərlə zəngindir. Eyni zamanda, geniş beynəlxalq əlaqələrə malik olan X.Məmmədova Pakistan, Hindistan, Səudiyyə Ərəbistanı, Koreya Respublikası, Oman kimi ölkələrin alimləri ilə sıx əməkdaşlıq edir.

# Hər üç adamdan birinin əziyyət çəkdiyi xəstəlik

## Allergiyanı ortaya çıxaran bir çox səbəblər var

**Hər il iyulun 8-i Ümumdünya Allergiya ilə Mübarizə Günü kimi qeyd olunur. Bu günün keçirilməsində əsas məqsəd xəstəlik və onun insan həyatına göstərdiyi təsirlər barədə cəmiyyəti məlumatlandırmaqdır.**

Ölkəmizdə bu sahədə vəziyyət necədir, xəstəliyə qarşı mübarizə necə aparılır? Diaqnostika qənaətbəxşdirmi? Bu və digər suallarımızı Azərbaycan Tibb Universitetinin Allerqologiya və immunologiya kafedrasının assistenti Həmidə Ağarəhimova cavablandırdı.



H.Ağarəhimovanın bildirdiyinə görə, dünyada olduğu kimi, Azərbaycanda da allergik xəstəliklər geniş yayılıb: "Statistik məlumatlara görə, dünya əhalisinin təxminən 30-40%-i allergik xəstəliklərdən əziyyət çəkir. Allergik xəstəliklər ilin bütün fəsillərində baş verə bilər. Lakin bəzi allergiyalar mövsümi xarakter daşıyır və əsasən yaz, yay və payız aylarında kəskinləşir. Tibdə bu xəstəliyə pollinoz deyilir. Pollinoz, bitki tozcuğunun yaratdığı allergik xəstəlikdir, əsasən tənəffüs yolları və gözlərin selikli qişalarında kəskin iltihab dəyişiklikləri ilə xarakterizə olunur. Pollinoz təkcə yaz aylarında deyil, yay və payız fəslində də özünü büruzə verir".

Müsahibimiz bildirdi ki, son illər qlobal istiləşmə və ölkəmizə müxtəlif ekzotik bitkilərin gətirilməsi ilə əlaqədar çiçəklənmə dövrü daha erkən başlayır. Ona görə də artıq fevral ayının ortalarından etibarən müraciət edənlər olur: "Xəstəliyin gedişində 3 kəskinləşmə dövrü var: ağacların çiçəklənməsi ilə bağlı yaz (mart-aprel-may), taxıl və çəmən otlarının tozcuqları ilə əlaqədar yay (iyun-iyul), bir də alaq otlarının törətdiyi pollinoz (avqust-sentyabr-oktyabr). Bunlar da həssas orqanizmlərə mənfi təsir göstərir.

Bakı ətrafında sərv və zeytun ağacları çoxluq təşkil edir. Əyalətlərdən isə bizə müraciət edənlərin şikayətləri adətən palıd, fındıq və çinar ağacları, taxıl və çəmən otlarından pişikquyruğu, tülküquyruğu, yulaf, çovdar və s, alaq otlarından yovşan, sirkan, günəbaxan, zəncirotu kimi bitkilərin tozcuqlarına həssaslıq səbəbindən qaynaqlanır. Hətta xəstələr var ki, onlarda hər üç fəsildə yetişən bitkilərin tozcuqlarına həssaslıq olur".

Mütəxəssisin sözlərinə görə, bəzi xəstələrdə allergik simptomlar mövsümlə əlaqədar deyil və ilboyu davam edir. Bu zaman allergiyanın yaranmasına daha çox ev tozu gənələri (Dermatophagoides Pteronyssinus, Dermatophagoides Farinae, Acarus siro ve s.) səbəb olur. Məsələn, Xaçmaz, Nabran, Qəbələ, Lənkəran, Lerikdə havanın rütubətliliyi ilə əlaqədar əhali arasında kif göbələkləri və ev tozuna qarşı yüksək həssaslıq müşahidə edilir. Quba, Qusar zonasını da bu siyahıya əlavə etmək olar.

H.Ağarəhimova qidalar və dərmanların da allergiyaya səbəb olduğunu diqqətimizə çatdırdı. Eyni zamanda, bitki tozcuqları və bəzi qidalar arasında çarpaz allergik reaksiyaların mövcudluğunu qeyd etdi: "Pollinozdan əziyyət çəkən xəstələrdə qida allergiyasına da rast gəlinir. Bu da bir-birinə yaxın olan tozcuq molekulları ilə bitki mənşəli qida allergenləri arasında çarpaz reaktivliklə əlaqədardır. Tutaq ki, zeytun ağacının tozcuğuna qarşı orqanizm həssasdırsa, həmin şəxs zeytunu yediyi zaman da şikayəti meydana çıxa bilər. Hətta bu qidaların mövsümdən kənar qəbulu nəticəsində allergik reaksiyaların inkişafı mümkündür.

Bütün bunlarla yanaşı, yay aylarında həşərat sancması nəticəsində yaranan insekt allergiyalarla da rastlaşırıq. Onlar ciddi problemlərə, bəzən anafilaksiyaya da səbəb ola bilir. Əgər kiminsə həşəratlara qarşı həssaslığı varsa, mütləq qaydada profilaktik tədbirlər görməli, ilk növbədə üzərində adrenalin avtoinjektoru gəzdirməlidir".

Həkim əlavə etdi ki, allergiya, həmçinin irsi xəstəliklər qrupuna aiddir. Bəzən deyirlər, filankəsdə allergiya sonradan yaranıb. Halbuki, kimdəsə təzahür edirsə, deməli ona irsən ötürülüb.

Müsahibimiz maraqlı bir məqama da toxundu. Bildirdi ki, bəzən müraciət edənlərdən "həkim, qaşınırıq, amma dərimizdə qızartı, köpəşmə olmur. Bu da allergiyadırmı" – deyə soruşanlar olur: "Qeyd edim ki, hər qaşınma allergiya mənşəli deyil. Doğrudur, allergiya qaşınma ilə müşahidə oluna bilər. Çünki allergik reaksiyalar zamanı ifraz olunan bioloji aktiv maddələr ilk növbədə sinir reseptorlarını qıcıqlandırır. Nəticədə isə meydana qaşınma kimi simptom çıxır. Amma bu təkcə allergiya ilə bağlı olmaya bilər. Tibbə məlumdur ki, müxtəlif endokrinoloji xəstəliklər (şəkərli diabet, tireoid vəzinin patologiyaları və s.), qaraciyərdə olan problemlər, müxtəlif dermatoloji xəstəliklər (qoturluq, dəmrov xəstəliyi, göbələk infeksiyaları) və sair də qaşınmaya səbəb ola bilər.

Pasiyent allerqoloji kabinetə qaşınma ilə müraciət edirsə, ilk növbədə simptomun səbəbini aşkar etməyə, düzgün müayinə aparmağa çalışırıq. Ona görə ki, əsl səbəbi aşkar edə bilsək, xəstə düzgün müalicə alacaq və nəticə müsbət olacaq. Allergiyalarla mübarizə dedikdə, ən çox anafilaksiyalara önəm verilir. Çünki həyat üçün çox təhlükəlidir və ölümlə nəticələnə bilər".



Allerqoloq, ildən-ilə pasiyentlər arasında bronxial astmadan əziyyət çəkənlərin sayının çoxaldığını diqqətə çatdırdı. Xüsusilə də uşaqlar arasında bu xəstəliyə rastgəlmə tezliyi artır. Amma onlara vaxtında, düzgün diaqnoz qoyularsa və müasir protokollara uyğun müalicə aparılarsa, həyat keyfiyyətini xeyli artırmış olarıq.

H.Ağarəhimova söhbətimizin sonunda səbəbkar allergeni aşkarlamaq məqsədi ilə dəri prik testlər, qanda spesifik İgE-nin təyini, molekulyar allerqodiaqnostika və s. aparıldığını söylədi: "Ölkəmizdə allergik xəstəliklərin diaqnostikası üçün hər cür şərait var və hətta İmmunoCAP Phadia, İmmunoCAP İSAC, Alex 2 cihazları vasitəsilə geniş spektrdə və molekulyar səviyyədə həyata keçirilir. Allergen komponentlərinə əsaslanan bu testlər vasitəsilə xəstəliyə diaqnoz qoymaq, inkişafını proqnozlaşdırmaq və gedişatını izləmək mümkündür. Məsələn, biz müayinə zamanı öyrənə bilirik ki, aktual qida allergeni sayılan yerfıstığının tərkibində hansı zülallar var. Bu proteinlərə qarşı həssaslıq anafilaksiyaya, yoxsa daha yüngül allergik simptomlara gətirib çıxaracaq".

**Qabil ABDULLAYEV**

# Kardioloji biomarkerlərin klinik əhəmiyyəti müzakirəyə çıxarılıb

**ATU-nun Rezidentura və magistratura şöbəsi Tədris Cərrahiyyə Klinikasının Klinik Diaqnostik Laboratoriya şöbəsi ilə birgə rezidentlər üçün “Kardioloji biomarkerlərin klinik əhəmiyyəti: ürək-damar xəstəliklərinin erkən diaqnostikası və proqnozlaşdırılmasında müasir yanaşmalar” mövzusunda seminar təşkil edib.**

Tədbirin moderatoru və təşkilatçısı, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov seminarın mövzusu haqda iştirakçılara ətraflı məlumat verib və Klinik Diaqnostik Laboratoriyanın xəstələrə yüksək səviyyədə xidmət göstərməsi ilə yanaşı, həm də yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirdiyini bildirib. Qeyd edib ki, ürək-damar xəstəliklərinin erkən və dəqiq diaqnostikasında laborator göstəricilərin, xüsusilə kardioloji biomarkerlərin istifadəsi klinik qərarların keyfiyyətini artırır, spesifik müalicəyə yönəlməni sürətləndirir və nəticədə xəstəliklərin ağırlaşma riskini, həmçinin səhv diaqnostika və yanlış müalicə hallarını əhəmiyyətli dərəcədə azaldır.

Klinik Diaqnostik Laboratoriya şöbəsinin müdiri Leyla Həşimova çıxışında ürək-damar xəstəliklərinin diaqnostikasında və proqnozlaşdırılmasında istifadə edilən kardioloji biomarkerlərin klinik dəyərinin yalnız laborator texnologiyalardan deyil, həm də klinisist və laborator mütəxəssislər arasında olan effektiv əməkdaşlıqdan asılı olduğunu qeyd edib. Bildirib ki, kardioloji biomarkerlərin düzgün qiymətləndirilməsi yalnız analiz nəticələrinə deyil, həm də onların klinik mənasına əsaslanmalıdır.





Şöbənin II kurs həkim-rezidenti Aytən Abasova təqdim etdiyi mövzu çərçivəsində kardioloji biomarkerlərin klinik əhəmiyyəti, onların ürək-damar xəstəliklərinin erkən diaqnostikası və proqnozlaşdırılmasında rolu barədə ətraflı məlumat verib. Təqdimat zamanı müasir diaqnostik metodlar barəsində də söhbət açıb. O, kardioloji biomarkerlərin xəstəyə yanaşmada fərdi və risk əsaslı qərarların verilməsində necə istifadə olunduğunu, dinamik təqibin əhəmiyyətini, biomarkerlər arasında spesifiklik və həssaslıq fərqlərini izah edib.

Təqdimatın sonunda mövzuya uyğun hazırlanmış situasiya məsələsi seminar iştirakçılarına təqdim olunub, klinik ssenari əsasında iştirakçılar biomarkerlərin interpretasiyasını praktiki şəkildə müzakirə ediblər.

# Yay meyvələri: qarpız, qovun, çiyələk, gilas...

## Min bir faydası, amma diqqət edilməli məqamlar da var

**Yay fəsli yaxınlaşdıqca, meyvələrin istehlak həcmi də artır. Dadından əlavə, yay mövsümü meyvələri insan sağlamlığının qorunmasında əsas rol oynayan vitamin və mineralların mühüm mənbəyidir. Qarpız, qovun, alça, çiyələk, gilas, albalı, ərik, şaftalı və gavalı əsas yay meyvələridir. Bu meyvələr yüksək qida dəyərinə malikdir və onların orqanizmə müsbət təsirini təmin edən əhəmiyyətli miqdarda vitaminlər (xüsusilə C, A və B qrupu), mikroelementlər (kalium, maqnezium, dəmir), antioksidanlar və pəhriz lifi ehtiva edir.**

Bu barədə “Təbib” qəzetinə açıqlama verən Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Nigar Əliyeva yay meyvələrinin faydalı xüsusiyyətlərindən bəhs edib. Bildirib ki, meyvələr qələviləşdirici xassəyə malik olduqları üçün orqanizmin turşu-qələvi müvazinətini tənzimləyir və asidotik dəyişikliyin qarşısını alır. Eyni zamanda bağırsaqların hərəki və sekretor fəaliyyətini gücləndirir, peristaltikasını tənzimləyir: “Bu proses meyvələrin tərkibində olan sellüloza, hemisellüloza, pektin maddələri kimi dəyərli qida lifləri hesabına tənzimlənir. Qarpız və qovun kimi yüksək sulu meyvələr bədənin su balansını qorumağa kömək edir ki, bu da isti havalarda xüsusilə vacibdir. Onlar susuzlaşmanın qarşısını alır, bədən istiliyini tənzimləyir və metabolik prosesləri yaxşılaşdırır.

Tərkibindəki selen, beta karotin, C vitamini, lutein və xolin kimi antioksidant maddələr sayəsində qovun oksidləşdirici stresin qarşısını alaraq bədəndən sərbəst radikalların çıxarılmasına kömək edir və bu yolla immunitet sisteminin güclənməsinə töhfə verir, eləcə də xərçəngə qarşı qoruyucu təsir göstərir. Bundan əlavə, tərkibindəki C vitamini dəri sağlamlığını dəstəkləyir, beta karotin göz sağlamlığına töhfə verir, yüksək su və lif sayəsində həzm sisteminin nizamlı işləməsinə kömək edir.



Qarpız dedikdə, ağlımıza likopen gəlir. Likopen - meyvə və tərəvəzlərə qırmızı rəng verən karotin ailəsindən bir antioksidantdır. Bədənimiz likopen istehsal edə bilmir və biz onu qida ilə alırıq. Likopen ürək-damar xəstəlikləri, diabet, xərçəng, osteoporoz kimi bir çox xəstəliyin müalicəsinə yaxşı təsir göstərir. Tərkibindəki sitrulin və arginin qan təzyiqini aşağı salan təsirə malikdir, həmçinin arginin immun sistemini gücləndirməkdə son dərəcə faydalıdır. Qarpızın xüsusilə qabığa yaxın olan ağ hissəsində sitrulin çoxdur. Maqnezium və kalium isə əzələ ağrıları və əzələ yığılmasına yaxşı təsir göstərir. Bundan əlavə, qarpız A, B6 və C vitaminlərinin mühüm mənbəyidir. Tərkibindəki 90%-dən çox su xüsusilə yay aylarında orqanizmin maye ehtiyacını ödəyir, liflər isə həzm sisteminin nizamlı işləməsini təmin edir”.

Onun sözlərinə görə, üzüm, əncir təbii şəkərlərdən - fruktoza, qlükoza və saxarozadan ibarətdir və orqanizm üçün sürətli enerji mənbəyi rolunu oynayır: “Üzümün tərkibində vitamin və minerallarla yanaşı, flavonoidlər, proantosiyanidinlər və antosiyanidinlər, antosiyanin, flavanol, fenolik turşu, kofeik turşusu, katexin və resver kimi fenol və polifenolların olması sağlamlıq üçün əhəmiyyətlidir. Qara üzümün tərkibindəki resveratrol - bu gün tibbdə tanınan ən güclü antioksidantdır, qan damarlarını genişləndirmək və qanın laxtalanmasını azaltmaq kimi faydaları var. Eyni zamanda qara üzümün tərkibindəki dəmir - anemiyadan əziyyət çəkən insanlar üçün xeyirlidir”.

N.Əliyeva onu da bildirib ki, C vitamini, B qrupu vitaminləri (B1, B2, B3, B5, B6), K vitamini və E vitamini ilə zəngin olan çiyələyin tərkibində kalsium, dəmir, maqnezium kimi minerallar da var: “Tərkibində antioksidant maddələr olduğu üçün həm xərçəngdən qoruyucu, həm də LDL adlı pis xolesterini aşağı salan təsirə malikdir. Qan şəkərini balanslaşdıraraq diabet riskini azaldır, B9 vitamini (fol turşusu) sayəsində yorğunluq və halsızlığa yaxşı təsir göstərir.

Digər yay meyvəsi əriyin də tərkibi C, A, K və B qrup vitaminləri, natrium, kalium, kalsium, dəmir və maqnezium kimi minerallarla zəngindir. Belə ki, tərkibindəki C vitamini sayəsində dəmirin mənimsənilməsini artırır. K vitamini və maqnezium sayəsində isə sümüklərin güclənməsinə kömək edir, diş ətini gücləndirir. A və C vitaminləri bədəndə kollagen istehsalını dəstəkləyir və qırışların əmələ gəlməsini gecikdirir, beta karotin göz sağlamlığına qoruyucu təsir göstərir, lif isə toxluğu təmin edərək çəkini nəzarətdə saxlamağa kömək edir. Aşağı glikemik indeksə malik olan ərik qan şəkərini balanslaşdırır. Şəkərli diabet xəstələri asanlıqla istehlak edə bilərlər.

Albalının tərkibində də A, C, K və B qrup vitaminləri, həmçinin maqnezium, kalium, manqan, mis var. Tərkibindəki kalium sayəsində bədənin natrium kalium balansını təmin edərək qan təzyiqini aşağı salır. Sidik turşusunun bədəndən çıxarılmasına kömək edir, podaqra və oynaq ağrılarına yüngül ağrıkəsici təsir göstərir. Tərkibində olan melatonin sayəsində yaxşı və keyfiyyətli yuxunu təmin edir. Aşağı glikemik indeksi olduğu üçün şəkərli diabet xəstələri də istifadə edə bilər. Tərkibindəki yüksək liflər qəbizliyi aradan götürür, amma həddindən artıq istehlak ishala səbəb ola bilər”.

Beləliklə, yay meyvələri yüksək faydalı xüsusiyyətlərə malikdir, sağlamlığı təşviq edir və xəstəliklərin qarşısını alır. Amma mənfi nəticələrdən qaçmaq üçün seçim və istehlaka şüurlu yanaşma vacibdir.

Mütəxəssisin sözlərinə görə, üzüm və əncir rasiona diqqətlə daxil edilməlidir. Belə ki, fruktoza və qlükoza kimi təbii şəkərlərin faydalarına baxmayaraq, onların həddindən artıq istehlakı şəkərli diabet, hiperglikemiya, insulin müqaviməti və piylənmənin inkişafını və gedişatını ağırlaşdıra bilər.

Nigar xanım yay meyvələrinə allergik reaksiyalara da toxunub. Qeyd edib ki, şaftalı, çiyələk və gilasda olan allergenlər yüngül (qaşınma, qızartı), bəzi hallarda şiddətli (anafilaktik şok) simptomlara səbəb ola bilər: “Bundan əlavə, meyvələrin yetişdirilməsi zamanı istifadə olunan pestisidlər və nitratlar insan üçün ciddi təhlükə yaradır. Bu maddələr meyvələrin toxumalarında toplana bilər və uzun müddət və ya həddindən artıq istehlak nəticəsində bədənimizin orqan və sistemlərinə toksik təsir göstərə bilər”.

Müsahibimiz riskləri minimuma endirmək və yay mövsümü meyvələrini yeməkdən maksimum fayda əldə etmək üçün tövsiyələrini də verib: “Tərkibində kimyəvi maddələr və pestisidlər olan məhsulların alınması riskini azaltmaq üçün mövsümi və yerli meyvələri seçin, yeməzdən əvvəl meyvələri yaxşıca yuyun, mümkünsə qabığını soymaq və islatmaq üsullarından istifadə edin. Xüsusilə metabolik probleminiz və ya şəkərli diabetə meylliliyiniz varsa, tərkibində yüksək şəkər olan meyvələrdən çox istifadə etməyin. Allergiyalara qarşı diqqətli olun: allergik reaksiyalara meyliniz varsa, əlamətlərə səbəb olan meyvələrin istehlakını məhdudlaşdırmaq daha yaxşıdır”.



# Əməkdaşımız yüksək idman statusuna layiq görülüb

**1-6 iyul tarixlərində Bolqarıstanın Burqas şəhərində Beynəlxalq Kyokuşin-kan Karate Təşkilatının seminarı keçirilib. Seminarda Azərbaycan Tibb Universitetinin "Təbib" Tədris-İdman Mərkəzinin müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov da iştirak edib. 14 ölkədən 300 nəfərin təmsil olunduğu beynəlxalq tədbirə təşkilatın prezidenti Kaiço Hatsuo Royama rəhbərlik edib.**



Q.Aslanovun verdiyi açıqlamaya görə, 6 gün ərzində səhər-axşam təlim məşqləri keçirilib: "Səhərlər stadionda, meşədə, dənizdə, axşamlar isə zal və stadionda məşqlər oldu. Məşqlər başa çatdıqdan sonra dərəcə imtahanları verdik. Mən də Şihan (usta) adı almaq üçün lazımi normativləri yerinə yetirdim. Nəticə uğurlu alındı və 5-ci dan qara kəmər dərəcəsinə, Şihan statusuna layiq görüldüm.

Məlumat üçün bildirim ki, şihan statusu hər idmançıya verilmir. Bunun üçün normativləri yerinə yetirməklə yanaşı, beynəlxalq seminarlara dəvət almalı, iştirak etməlisən, yetirmələrin arasında dan dərəcəsi alanlar, Avropa və dünya çempionları olmalıdır. Mən də beynəlxalq dərəcəli hakiməm, yetirmələrim arasında dünya və Avropa çempionatlarında mükafat qazananlar olub".



Qeyd edək ki, Q.Aslanov eyni zamanda Beynəlxalq Kyokuşin-kan Karate Təşkilatının Azərbaycan üzrə nümayəndəsidir. Mütəmadi olaraq beynəlxalq səviyyəli tədbirlərdə iştirak edir. O cümlədən bu il sentyabrın 5-7-də Stokholmda keçiriləcək beynəlxalq seminarda təlim məşqləri keçmək, noyabrın 22-23-də isə Tokioda baş tutacaq dünya çempionatında hakim kimi iştirak etmək üçün dəvət alıb.

# Elmə və insanlığa həsr olunmuş ömür

**Tibbi və bioloji fizika kafedrasının dosenti Tapdıq Əliyev bu günlərdə dünyasını dəyişib. 1947-ci ilin iyul ayında Qərbi Azərbaycanın Çəmbərək (Krasnoselo) rayonunun Əmirxeyir kəndində anadan olan T.Əliyev hələ erkən yaşlarından istedadı və elmə marağı ilə fərqlənirdi.**



Birinci sinfə 5 yaşı tamam olmamış gedən T.Əliyev orta məktəb illərində keçirilən Ermənistan respublikası riyaziyyat və kimya olimpiadalarında uğurla iştirak edib, ikinci yerə layiq görülüb. Bu uğur, o dövrün siyasi və sosial mənzərəsində, xüsusilə də bölgədə üstünlük təşkil edən erməni şovinist mühitində milli bir iradənin və elmin qələbəsi kimi dəyərləndirilə bilərdi.

Tapdıq Əliyev 1964-cü ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Fizika fakültəsinə qəbul olunub. 1969-cu ildə universiteti fərqlənmə diplomu ilə başa vurub. Yüksək elmi potensiala və sistemli düşüncəyə malik olan Tapdıq müəllim cəmi üç il ərzində elmi araşdırmalarını tamamlayaraq, 1973-cü ilin yanvarında namizədlik dissertasiyasını uğurla müdafiə edib.

T.Əliyev 1986-cı ildən başlayaraq uzun müddət Azərbaycan Tibb Universitetinin Tibbi və bioloji fizika kafedrasında pedaqoji fəaliyyət göstərib. O, kafedrada dosent vəzifəsində çalışaraq, gələcək həkimlərin nəzəri hazırlığında öz bilik və bacarığını əsirgəməyib. Tədris metodikası, tələbəyə fərdi yanaşması, elmi düşüncə tərzi və humanist mövqeyi sayəsində o yalnız müəllim deyil, həm də mənəvi örnəyə çevrilib. O, tələbələrə bilikdən savayı, həm də elmə bağlılıq və dürüstlük aşılayırdı.

Tapdıq Əliyev elmi ictimaiyyətin, tələbələri və həmkarlarının yaddaşında nüfuzlu alim, fədakar pedaqoq və əsl ziyalı kimi əbədi qalacaq.

**Tibbi və bioloji fizika kafedrasının əməkdaşları**

# İdmançımız beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcək




**Universitetimizin idman həyatı daim diqqət mərkəzindədir. Bu dəfə sizə ATU-nun Tədris Cərrahiyyə Klinikasında daxili nəzarət xidmətində nəzarətçi kimi çalışan, öz işinə həmişə məsuliyyətlə yanaşan bir gəncin uğurlarından bəhs etmək istəyirik.**

Məlumat üçün bildirək ki, haqqında söz açdığımız Şirxan Əsgərli dünyaya Kürdəmir rayonunun Şilyan kəndində göz açıb. İlk təhsilini Zahid Əhmədov adına Şilyan kənd tam orta məktəbində alan Ş.Əsgərli 2013-cü ildə Respublika Olimpiya İdman Liseyinə qəbul olunaraq peşəkar idman həyatına qədəm qoyub.

Həmin liseyi 2020-ci ildə bitirərək Bakı şəhər çempionatları, Respublika yarışları və digər mötəbər turnirlərə qatılan gənc idmançı dəfələrlə mükafatlandırılıb. Onun ən yaddaqalan uğurlarından biri isə 2019-cu ildə Belarusda keçirilən Yunan-Roma güləşi üzrə dünya çempionatında qazandığı gümüş medal və fəxri kubok olub.

2021-23-cü illərdə hərbi xidmətdə olan Ş.Əsgərli 2022-ci ilin sentyabrında Ermənistanla sərhəddə baş vermiş lokal xarakterli antiterror əməliyyatlarında iştirak edib.

Hərbi xidmətdən sonra Yunan-Roma güləşi üzrə milli yığma komandanın tərkibində hazırlıq məşqlərinə başlayan Şirxan, bu sahədəki bilik və bacarığını gənc nəslə ötürmək məqsədilə Abşeron İdman Klubunda məşqçi-müəllim kimi də fəaliyyət göstərib.

2024-cü ildən etibarən daha bir idman növü – Kəmər güləşi üzrə milli komandaya seçilən Ş.Əsgərli, bu il Respublika turnirində 1-ci yerə layiq görülərək beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazanıb. Ötən il Türkmənistan və Tatarıstanda keçirilən dünya çempionatlarında da Azərbaycanı ləyaqətlə təmsil edib,



xüsusilə Tatarıstanda keçirilən yarışda 3-cü yerin sahibi olaraq bayrağımızı dünya arenasında dalğalandırıb.

# Miqrenin müalicəsi icbari tibbi sığorta təminatına daxildir

**Miqren ən geniş yayılmış nevroloji xəstəliklərdən biridir və təkrarlanan şiddətli baş ağrısı tutmaları ilə xarakterizə olunur. Bu ağrı çox zaman pasiyentin gündəlik həyat fəaliyyətini məhdudlaşdırır, iş qabiliyyətini aşağı salır. Miqrenin vaxtında müəyyən olunması və düzgün müalicəsi pasiyentin həyat keyfiyyətinin yaxşılaşması baxımından olduqca vacibdir.**

İcbari tibbi sığortanın Xidmətlər Zərfi ilə miqren xəstəliyinin diaqnostika və müalicəsi üzrə bir sıra tibbi xidmətlər qarşılanır. Bu xidmətlər sayəsində miqrenin dəqiq diaqnozunun qoyulması, xəstəliyin gedişatının izlənilməsi və fərdi müalicə planının hazırlanması mümkün olur.

Miqrenin diaqnozu klinik qiymətləndirmə (nevroloji müayinə) və zəruri instrumental-diaqnostik metodların tətbiqi ilə qoyulur. Xəstəliyin səbəbini dəqiq müəyyənləşdirmək və digər nevroloji pozuntuları istisna etmək məqsədilə icbari tibbi sığorta hesabına maqnit-rezonans tomoqrafiya (MRT) və elektroensefaloqrafiya (EEQ) müayinələri aparılır. MRT müayinəsi beynin detallı təsvirini əldə etməyə, baş ağrılarının digər mümkün səbəblərini (beyin şişi, insult və s.) vaxtında aşkar etməyə imkan verir. EEQ müayinəsi isə beynin elektrik aktivliyini qeydə almaqla, miqren tutmalarının epilepsiya kimi oxşar klinik əlamətlər verə bilən digər hallardan fərqləndirilməsinə xidmət edir.



Sözügedən müayinələr miqrenə xas şikayətlərin məhz bu xəstəliklə əlaqəli olduğunu təsdiqləməyə şərait yaradır. Belə ki, miqren tutmaları zamanı yaranan güclü, adətən başın bir tərəfində lokalizə olunan pulsasiyaedici (nəbzvari) baş ağrısı, ürəkbulanma, qusma, işığa və səsə qarşı həssaslıq kimi əlamətlərin səbəbi müasir diaqnostik vasitələrin köməyi ilə dəqiq qiymətləndirilə bilir. Nəticədə həkim-nevroloq pasiyent üçün effektiv müalicə metodunu müəyyən edir və miqren tutmalarının tezliyi ilə şiddətinin azalmasına nail olunur.

Həmçinin tibbi göstərişə əsasən miqren xəstəliyinin stasionar müalicəsi icbari tibbi sığorta hesabına həyata keçirilir. Vətəndaşlar sözügedən xidmətlərdən yararlanmaq üçün ilk növbədə ailə həkiminə və ya ixtisaslı həkimə (həkim-nevroloqa) müraciət etməlidirlər. Qeyd olunan xidmətlər – həkim-nevroloq konsultasiyası, MRT və EEQ kimi instrumental-diaqnostik müayinələr, eləcə də stasionar müalicə dövründə pasiyentin dərman preparatları ilə təminatı – tibbi göstəriş əsasında TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində və Səhiyyə Nazirliyinin müvafiq elmi-tədqiqat institutlarında icra olunur.

Məlumat üçün qeyd edək ki, miqren tutmalarının başlamasına müxtəlif daxili və xarici amillər səbəb ola bilər. Ən çox rast gəlinən qıcıqlandırıcı faktorlar sırasında güclü stress, yuxu rejiminin pozulması və ya yuxusuzluq, hormonal dəyişikliklər (xüsusilə qadınlarda menstrual dövr ərəfəsi), parlaq işıq və ya güclü səsə məruz qalma, habelə bəzi qida məhsullarının (məsələn, şokolad, kofeinli içkilər və s.) qəbulu dayanır. Risk faktorlarından yayınmaq və düzgün müalicə sayəsində miqren xəstəliyinə nəzarət etmək və normal həyat fəaliyyətini bərpa etmək mümkündür.

## Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Gülcamal Həsənovaya həyat yoldaşı **Müsəddin Həsənovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Adil Bayramova bacısı oğlu **Murad Elyazovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ: Mərdanov qardaşları - 98c 2-ci mərtəbə, Tel.: 595-24-97 tabibqazeti@gmail.com

Lisenziya H - 022633 İndeks -0269 Sifariş - 0013 Sayı 800